

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 161 (21.313)

*19 avqust 2015-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Naxçıvanda görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin 120 illik yubileyi qeyd olunub





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2015-ci il aprelin 2-də "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncamın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında Tədbirlər Planı təsdiq olunmuş, görkəmli sərkərdənin yubileyi silsilə tədbirlərlə qeyd olunmuşdur.

Avqustun 18-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Cəmşid Naxçıvanskinin 120 illik yubiley tədbiri keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və tədbir iştirakçıları teatrın foyesində Cəmşid Naxçıvanskinin 120 illik yubileyinə həsr olunmuş sərgiyə baxmışlar.

Sərgidə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin görkəmli sərkərdənin yubileyinin qeyd olunması barədə sərəncamı və bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi Tədbirlər Planı, Cəmşid Naxçıvanskinin həyatının müxtəlif dövrlərinə aid fotoşəkillər, portretlər, onun hərb sənəti sahəsində işləyib hazırladığı sənədlər, yazdığı məqalələr, təltif olunduğu orden və medalların şəkilləri, yubiley münasibətilə buraxılmış poçt markası, istedadlı hərbi xadimin döyüş yoluna həsr olunmuş kitablar, qəzet və jurnal materialları nümayiş etdirilirdi.

Sərgi ilə tanışlıqdan sonra keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: Bu gün Azərbaycanın görkəmli hərb xadimi Cəmşid Naxçıvanskinin anadan olmasının 120 illik yubileyini qeyd edirik. Cəmşid Naxçıvanski nəsillərə nümunə olan hərb xadimidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Cəmşid Naxçıvanskinin anadan olmasının 120 illik yubileyinin keçirilməsi haqqında 2015-ci il 2 aprel tarixli Sərəncamında qeyd olunduğu kimi: ***"Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir. Onun ölkədə yüksək ixtisaslı hərbçi kadr hazırlığı sahəsində zəngin fəaliyyəti təqdirəlayiqdir".***

Ali Məclisin Sədri demişdir: Azərbaycan türkləri tarixən böyük hərb sənətinə malik olmuşlar. Bu sənətin inkişafında və davam etdirilməsində Naxçıvanskilər nəslinin nümayəndələri olan generalların da mühüm xidmətləri vardır. Onlar şərəfli döyüş yolu keçmiş, gənc nəsil üçün bütöv bir vətənpərvərlik dərsliyi hazırlamışlar. Cəmşid Naxçıvanski bu nəslin yetişdirdiyi altı generaldan biri idi. İlk hərbi təhsilini Tiflis Yunker Məktəbində alan Cəmşid Naxçıvanski Birinci Dünya Müharibəsi başlayandan sonra Qərbi Ukraynadakı qvardiya məktəbində qısamüddətli kurs keçmişdir. O, müsəlmanlardan ibarət süvari eskadronunun komandiri kimi Birinci Dünya Müharibəsi cəbhələrində əsl şücaət və qəhrəmanlıq göstərmiş, dəfələrlə yaralanmasına baxmayaraq, yenidən döyüş cəbhəsinə qayıtmış və nümunə göstərmişdir.

Qeyd olunmuşdur ki, Cəmşid Naxçıvanski müharibə başa çatandan sonra tabeliyində olan hərbi hissə ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin müdafiəsində iştirak etmiş, 1918-ci il sentyabrın 15-də Bakının erməni daşnaklardan və "Sentrokaspi diktaturası" qüvvələrindən təmizlənməsində fəallıq göstərmişdir. 1920-ci ilin əvvəllərində Dağlıq Qarabağda azərbaycanlı əhaliyə amansız divan tutan erməni quldur dəstələri Cəmşid Naxçıvanskinin komandanlıq etdiyi alay tərəfindən darmadağın edilmiş və qısa müddətdə orada əmin-amanlıq yaradılmışdı. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov tərəfindən Bakıya dəvət olunan Cəmşid Naxçıvanskiyə Azərbaycan Birləşmiş Komanda Məktəbinə rəhbərlik həvalə olunmuş və ilk milli atıcı diviziyanın yaradılması tapşırılmışdı. 1921-1931-ci illərdə milli atıcı diviziyasının komandiri olan Cəmşid Naxçıvanski 1931-1934-cü illərdə Moskvada Frunze adına Ali Hərbi Akademiyada təhsil almış, sonra isə hərbi pedaqoq kimi həmin akademiyada gənc sərkərdələr nəslinin hazırlanmasında gərgin fəaliyyət göstərmişdir.

Bütün bunlara baxmayaraq, ötən əsrin 30-cu illərinin repressiyası görkəmli sərkərdə Cəmşid Naxçıvanskidən yan keçməmişdir. Sovetlər Birliyi dövründə hərb sənətinin inkişafında və kadr hazırlığı sahəsində səmərəli fəaliyyətinə, dəfələrlə mükafatlandırılmasına baxmayaraq, Cəmşid Naxçıvanski əvvəllər Azərbaycan Xalq Cümhuriyyətinin zabiti olduğu üçün daim nəzarətdə saxlanılır, ona qarşı təqiblər artır, haqsız ittihamlar irəli sürülürdü. 1938-ci ilin may ayında həbs olunan Cəmşid Naxçıvanskiyə ölüm hökmü çıxarılmışdır.



Ali Məclisin Sədri demişdir: Həyat – ömrün müddətinə görə deyil, bu ömrü necə yaşamağa görə qiymətlidir. Cəmşid Naxçıvanski şəxsiyyətinin böyüklüyü ondadır ki, bir-birinə zidd olan üç quruluşda yaşamasına baxmayaraq, şərəfli zabit adına ləkə gətirməmiş, təmsil etdiyi nəslin və xalqın ləyaqətini qorumuş, həyatının məqsədini vətənə xidmətdə görmüşdür. O, bu yolda bütün çətinliklərə sinə gərmiş, peşəkar sərkərdə bacarığı və sədaqəti göstərmişdir. Azərbaycan xalqının digər görkəmli nümayəndələri kimi, repressiya qurbanı olan Cəmşid Naxçıvanski də əsl bəraətini ulu öndər Heydər Əliyevin ötən əsrin 70-ci illərində Azərbaycanda həyata keçirdiyi tarixi yaddaşa və ədalətə qayıdış siyasəti nəticəsində almışdır. Xalqımızın ümummilli lideri Azərbaycanın rəhbəri seçiləndən qısa müddət sonra "Cəmşid Naxçıvanskinin xatirəsinin əbədiləşdirilməsi haqqında" qərar vermişdir. Bundan sonra Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbi, Naxçıvan şəhərində isə Cəmşid Naxçıvanskinin ev-muzeyi yaradılmış, bir məktəbə və küçəyə Cəmşid Naxçıvanskinin adı verilmişdir.

"Cəmşid Naxçıvanski qısa ömür yaşadı. Onun 43 illik ömrünün 26 ili hərb sənətinə sərf olunmuş, sıravi əsgərdən general rütbəsinədək şərəfli yol keçmişdir", – deyən Ali Məclisin Sədri çıxışını ümummilli liderimiz Heydər Əliyevin aşağıdakı fikirləri ilə tamamlamışdır: ***"Naxçıvanlılar hərbi peşəyə keçmiş zamanlardan çox böyük maraq göstəriblər. Əgər keçmiş tarixi götürsək, burada Naxçıvanskilər, Kəngərlilər sülalələri olubdur. Onlardan böyük zabitlər, çar Rusiyasının generalları çıxıbdır. O qədər yüksək zəka nümayiş etdiriblər ki, böyük rütbələrə nail olublar. Həmin nəslin yetirmələrindən biri də Cəmşid Naxçıvanskidir. Onun xatirəsi Azərbaycan xalqının qəlbində həmişə yaşayıb və yaşayacaqdır".***

Tədbirin aparıcıları Cəmşid Naxçıvanskinin diviziya komandiri və pedaqoq kimi müxtəlif illərdə "Bakinski raboçi", "Hərbi bilik", "Krasnaya zvezda" qəzetlərində dərc etdirdiyi məqalələrindən parçaları oxumuş, onun ordu quruculuğu ilə bağlı tövsiyələrini və görkəmli hərb xadimlərinin Cəmşid Naxçıvanski haqqında fikirlərini tədbir iştirakçılarının diqqətinə çatdırmışlar.

Sonra tədbir iştirakçıları Naxçıvan Dövlət Televiziyasının Cəmşid Naxçıvanskinin 120 illik yubileyi münasibətilə hazırladığı "Sərkərdə" televiziya filminə baxmışlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Cəmşid Naxçıvanskinin adı hərb tariximizə qızıl hərflərlə yazılıb

### *Xalqımızın görkəmli şəxsiyyətlərinin keçdikləri həyat yolunu öyrənmək, onları gənc nəslə bir nümunə kimi tanıtmaq muzeylərin başlıca vəzifəsidir*

Kəngərli nəslinin yetirməsi olan, görkəmli hərbi xadim, Azərbaycan ilk milli atıcı diviziyasının komandiri olmuş Cəmşid Naxçıvanskinin ev-muzeyinin yaradılmasında ümummilli liderimiz Heydər Əliyevin böyük xidmətləri olub. Cəmşid Naxçıvanskinin keçdiyi döyüş yolunun, hərbi fəaliyyətinin təbliği, adının əbədiləşdirilməsi muzeyin yaradılmasının ən ümdə məqsədlərindən biri idi. Ulu öndərimiz Heydər Əliyev Azərbaycana birinci rəhbərliyi dövründə Cəmşid Naxçıvanskinin anadan olmasının 85 illik yubileyi ilə əlaqədar 8 avqust 1981-ci il tarixli qərar imzalayır. Qərarla əlaqədar olaraq 22 oktyabr 1982-ci il tarixdə Naxçıvan şəhərində generalın ev-muzeyi fəaliyyətə başlayır.

Yeni yarandığı dövrdə cəmi 300 eksponatla fəaliyyətə başlayan muzeyin fondunda bu gün 6000-ə yaxın eksponat qorunub saxlanılır. 1000-ə yaxın eksponat ekspozisiyada nümayiş etdirilir. Muzey ekspozisiyası 3 böyük zal və 1 otaqdan ibarətdir. Birinci böyük zal 12 bölmədən ibarət olub, Cəmşid Naxçıvanskinin həyatı və hərb yolunu əks etdirir. Burada generalın uşaqlıq illərinə, aldığı ilk hərbi təhsil illərinə, Birinci Dünya Müharibəsində döyüş yoluna, 1921-1931-ci illərdə Azərbaycan dağatıcı diviziyasına komandirliyi dövrünə aid, M.V.Frunze adına Hərbi Akademiyada oxuduğu illərə, habelə akademiyada hərbi pedaqoji fəaliyyəti dövrünə dair sənədlər və fotoşəkillər nümayiş etdirilir. İkinci və üçüncü zallar memorial otaqlar kimi qorunub saxlanılır. Otaqlardan biri generalın iş otağı kimi nümayiş etdirilir. Burada onun şəxsi əşyaları, oxuduğu kitablar, istifadə etdiyi əşyalar mühafizə olunur.

Muzeydə ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan otaq fəaliyyət göstərir. Otaqda ulu öndərin 1974, 1984, 1985-ci illərdə Bakıda Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi məktəbdə olarkən çəkilmiş

*Ardı 2-ci səhifədə*



fotoşəkilləri, 1990-cı ildə generalın anadan olmasının 95 illik yubileyində iştirakına aid fotoşəkillər, muzeyin açılışına aid fotolar öz əksini tapıb.

Görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin keçdiyi döyüş yolunu, onun hərb sənətindəki rolunu araşdırmaqla yanaşı, bu ölməz sərkərdənin hərbi istedad və bacarığının təbliği ilə gənclərimizdə hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşdırılması muzeyin fəaliyyətinin əsasını təşkil edir. Cəmşid Naxçıvanskinin ev-muzeyi 33 ildir ki, fəaliyyət göstərir.



Generalın anadan olmasının ildönümü və yubiley günləri ilə əlaqədar sərgilər hazırlanır, tədbirlər həyata keçirilir. Cəmşid Naxçıvanski ilə yanaşı, Kəngərli nəslinin yetişdirdiyi digər generalların – I Ehsan xanın, İsmayıl xan Naxçıvanskinin, II Kalbalı xan Naxçıvanskinin, Hüseyn xan Naxçıvanskinin, III Kalbalı xan Naxçıvanskinin doğum günlərinə həsr olunmuş sərgilər nümayiş etdirilir.

Muzeyin elmi işçiləri məktəblərdə, digər müəssisə və təşkilatlarda olmuş, C.Naxçıvanskinin həyatı və döyüş yolundan bəhs edən "Görkəmli Azərbaycan sərkərdəsi", "Cəmşid Naxçıvanskinin döyüş yolu gənclərə örnəkdir", "Unudulmaz komandir", "General haqqında xatirələr", "Cəsur sərkərdə" adlı məruzələrlə çıxışlar etmişlər.

Ekspozisiyanı zənginləşdirmək məqsədilə elmi heyət tərəfindən eksponat toplama işləri aparılır. Son illərdə əldə olunan eksponatlar əsasında ekspozisiyada yeni guşə yaradılmış, digər guşələr zənginləşdirilmişdir. Belə ki, ekspozisiyada "Cəmşid Naxçıvanskinin son taleyi" adlı yeni guşə yaradılmışdır. Qafqazşünas alim R.N.İvanov tərəfindən muzeyə hədiyyə olunan C.Naxçıvanski ilə bağlı qiymətli eksponatlar da bu guşədə nümayiş etdirilir.

Bu il general C.Naxçıvanskinin anadan olmasının 120 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev C.Naxçıvanskinin anadan olmasının 120 illik yubileyi ilə əlaqədar 2 aprel 2015-ci il tarixdə Sərəncam imzalamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 9 aprel 2015-ci il tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanskinin anadan olmasının 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı təsdiq edilmişdir.

Aprel ayında "Cəmşid Naxçıvanski – 120" başlıqlı sərgi təşkil olunmuşdur. Muzeyə gələn tamaşaçılara sərgi haqqında məlumatlar verilməklə Cəmşid Naxçıvanskinin həyatı və döyüş yoluna aid maraqlı faktlar tamaşaçıların nəzərinə çatdırılmışdır.

Aprel ayından başlayaraq 2 ay müddətində Naxçıvan Muxtar Respublikasının tam orta, orta ixtisas və ali məktəbləri tələbələrinin açıq dərsləri keçirilmiş, distant dərslər keçilmişdir.



İyun ayında Cəmşid Naxçıvanskinin ev-muzeyi Naxçıvan Dövlət Tarix Muzeyi ilə birgə görkəmli sərkərdənin 120 illik yubileyinə həsr olunmuş "Azərbaycan hərb tarixində Cəmşid Naxçıvanskinin yeri və rolu" mövzusunda elmi-təcrübi konfrans keçirmişdir.

Avqust ayında generalın yubileyi geniş proqramlı tədbirlə muzeydə qeyd olunmuşdur.

Cəmşid Naxçıvanski irsinin yaşadılmasında, gələcək nəsillərə çatdırılmasında, gənclərdə hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasında muzey öz fəaliyyətini uğurla davam etdirir.

**Gülnaz HÜSEYNOVA**
***Cəmşid Naxçıvanskinin ev-muzeyinin əməkdaşı, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi***

*Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş sosial siyasət bu gün özünün müsbət nəticələrini verməkdədir. Təsadüfi deyil ki, bu gün sosial siyasətin Azərbaycan modeli beynəlxalq aləmdə maraqla öyrənilir. Ölkəmizdə, o cümlədən muxtar respublikada sosial siyasətə mühüm önəm verilməsi dövlət büdcəsinin xərclərində də özünü qabarıq büruzə verir. 2015-ci ildə sözügedən ali maliyyə sənədinin strateji hədəfləri sırasında özəl sektorun inkişafı, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, ixrac qabiliyyətinin artırılması, bölgələrin davamlı və tarazlı inkişafının təmin edilməsi ilə yanaşı, sosialyönümlü siyasətin prioritetliyinin qorunub saxlanılması da əsas yer tutur. Son illər muxtar respublikamızda əhalinin etibarlı sosial müdafiəsinin, habelə insanların yüksək rifah halının təmini istiqamətində həyata keçirilən ardıcıl tədbirlər ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli inkişaf modelinin sosialyönümlü səciyyəsindən irəli gəlir.*

# Sosial siyasət strategiyası uğurla davam etdirilir

## *Muxtar respublikamızda bu istiqamətdə əsaslı addımlar atılır, məqsədyönlü işlər görülür*

Muxtar respublikada davamlı olaraq həyata keçirilən məşğulluq tədbirləri əhalinin səmərəli məşğulluğunun təmin olunmasına, insanların sosial rifahının daha da yaxşılaşmasına geniş imkanlar yaradır.

Məşğulluq sahəsində son 20 il ərzində muxtar respublikada kompleks tədbirlər həyata keçirilib, yeni müəssisələr yaradılıb, səmərəli məşğulluq üçün mühüm layihələr reallaşdırılıb, özünüməşğulluğun intensivləşməsi dəstəklənib, yüksək əməkhaqqı tutumlu yeni iş yerlərinin açılması təşviq olunub ki, bu da, son nəticədə, əmək bazarında aktivliyi artırıb.

Muxtar respublika iqtisadiyyatında və sosial sahədə qazanılmış uğurların nəticəsi olaraq 1993-cü ildən 2003-cü ilin sonunadək olan dövrdə 21 min 851 yeni iş yeri yaradılıb ki, bunun da 11 min 377-si və ya 52,1 faizi daimi iş yerləridir. 1 yanvar 2004-cü ildən 1 yanvar 2014-cü il tarixədək isə muxtar respublika üzrə, ümumilikdə, 58 min 350 yeni iş yeri yaradılıb. Bu iş yerlərinin 41 min 891-i və ya 71,8 faizi daimi iş yeridir. 2015-ci ilin yanvar-iyun ayları ərzində muxtar respublikada 1830 yeni iş yeri yaradılıb ki, bunun da 1789-u və ya 97,8 faizi daimi iş yerləridir. Görülən işlərin nəticəsidir ki, 1 yanvar 2014-cü il tarixdən 1 avqust 2015-ci il tarixədək məşğulluq orqanları tərəfindən 4385 işaxtaran öz peşə və ixtisasına uyğun münasib işlə təmin olunub.

Gənclərin və qadınların məşğulluğunun təmin olunması diqqət mərkəzində saxlanılıb, nəticədə, cari ilin 6 ayı ərzində işə düzələnlərin 536 nəfərini gənclər, 295 nəfərini qadınlar təşkil edib. Həmçinin işlə təmin olunanların 49 nəfəri məhdud fiziki imkanlı şəxs, 44 nəfəri hərbi xidmətdən yeni tərxis olunanlardır.

Əmək bazarının tələbinə müvafiq olaraq işaxtaranların peşə hazırlığının təşkili istiqamətində də tədbirlər həyata keçirilib. Qeyd olunan dövr ərzində Naxçıvan Regional Peşə Tədris Mərkəzində Qaz təsərrüfatının istismarı və təmiri üzrə nəzarətçi-çilingər, Elektrik montyoru, Traktorçu-maşınçı, Fotoqraf, Bərbər, Qadın bərbəri, Dərzi, Kompüter istifadəçisi və Xalçaçı peşələri üzrə kurslar təşkil edilib və bu kurslara 195 nəfər, eyni zamanda sağlamlıq imkanları məhdud şəxslərin sosial reabilitasiyası məqsədilə bu kateqoriyadan olan 74 nəfər cəlb edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələrin uğurla icra olunması muxtar respublikada əmək ehtiyatlarından daha səmərəli istifadə edilməsinə geniş imkanlar açıb. Bu gün Naxçıvanda işsizliyin sıfır səviyyədə olması da belə deməyə əsas verir. Yeri gəlmişkən qeyd edim ki, bəzi inkişaf etmiş ölkələrdə işsizliyin səviyyəsi 25 faizdir, gənclər arasında isə bu rəqəm 50 faizə çatır.

Onu da deyək ki, əhalinin məşğulluğunun təmin edilməsində aktiv məşğulluq tədbiri olan əmək yarmarkalarının xüsusi yeri var. Ona görə də rübdə bir dəfə Naxçıvan şəhərində və muxtar respublikanın bütün rayon mərkəzlərində əmək yarmarkaları keçirilir. Bəhs olunan dövrdə də qrafik üzrə yarmarkaların keçirilməsi diqqətdə saxlanılıb, bu yarmarkalarda 1275 işaxtaran münasib işlərlə təmin edilib. Son illər müxtəlif nazirliklərdə də əmək yarmarkalarının keçirilməsinə başlanılıb.

Qeyri-məşğul əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə haqqıödənilən ictimai işlərin təşkilinə də ciddi önəm verilib. Bu dövrdə 480 nəfər haqqıödənilən ictimai işlərə cəlb edilib.

Bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdirilir. Belə ki, dünəndən başlayaraq növbəti əmək yarmarkalarına start verilib. İlk əmək yarmarkası Sədərək rayonunda təşkil olunub. Kəngərli rayonunda işaxtaranlar əmək yarmarkasına bu gün müraciət edə biləcəklər. Şahbuz rayonunda keçiriləcək əmək yarmarkası isə ondan bir gün sonra – avqustun 20-də təşkil ediləcək. Culfalı işaxtaran vətəndaşlar avqust ayının 21-də əmək yarmarkasında iştirak edəcəklər. Ordubadlılar isə bu tədbirə avqustun 25-də qatılacaqlar. Analoji tədbir Babək rayonunda avqustun 26-da, Şərur rayonunda isə avqustun 27-də baş tutacaq. Naxçıvan şəhərindəki işaxtaranlar isə vakant iş yerləri haqqındakı məlumatlarla avqustun 28-də "Gənclik" Mərkəzində təşkil olunacaq əmək yarmarkasında tanış ola biləcəklər.

Cəmiyyətdə stabil iqtisadi inkişaf tempinin əldə olunmasında əsas göstəricilər kimi məşğulluq və əhali gəlirləri artımının mühüm əhəmiyyəti vardır. Bu baxımdan 2015-ci ilin yanvar-iyun aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı göstəricilərinə nəzər saldıqda görürük ki, sənaye, kənd təsərrüfatı, tikinti-quruculuq, xarici ticarət və digər mühüm sahələrin inkişaf etdirilməsi əhali gəlirlərinin də səviyyəsində özünü göstərmiş və bu sahədə artım dinamikası qorunub saxlanılmışdır. Belə ki, cari ilin yanvar-iyun ayları ərzində muxtar respublikada əhalinin gəlirləri bir il öncəyə nisbətdə 5,2 faiz artaraq 794 milyon 636 min manata, onun hər bir nəfərə düşən həcmi isə 4,1 faizlik artımla 1803 manata çatmışdır. Bu dövr ərzində orta aylıq əməkhaqqının məbləği 392,6 manat təşkil etmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricidən 2,6 faiz çoxdur.

Vahid bir orqanizmi xatırladan cəmiyyətin istənilən sahəsində çatışmazlıq olarsa, ümumi həyatın müsbət ritmi pozulur, yeni və gözlənilməz problemlər baş qaldırır. Sevindirici haldır ki, bu gün vaxtilə ciddi problem kimi gündəmdə olan bir sıra məsələlər artıq öz həllini tapıb. Məhz buna görədir ki, muxtar respublika cəmiyyətinin qabaqcıl insanları bugünkü fəaliyyətini artıq daha mütərəqqi ideyaların reallaşdırılması istiqamətində qurublar. Bu çərçivədə sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinə, reabilitasiyasına, cəmiyyətə inteqrasiyasına, təhsilinə diqqət daha da artırılıb.

Cəmiyyətin həssas təbəqəsi hesab olunan bu uşaqların problemləri, onların gələcəyi yalnız dünyanın inkişaf etmiş qabaqcıl ölkələrində diqqət mərkəzində saxlanılır. Çünki bu səviyyəyə çatmaq üçün istər dövlətlər, istərsə də cəmiyyətlər çox mühüm inkişaf mərhələlərini keçməlidirlər. Muxtar respublikamız bu mərhələləri uğurla başa vurub. Bu gün Naxçıvanda fiziki imkanları məhdud uşaqların gələcək taleyi təkcə həmin uşaqların valideynlərini deyil, həm də dövlətimizi, cəmiyyətimizi düşündürür. Naxçıvan Muxtar Respublikası bir sıra məsələlərdə olduğu kimi, bu məsələdə də ölkəmizdə liderliyini qorumaqdadır.

Sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi, cəmiyyətə fəal inteqrasiyası istiqamətində bu gün muxtar respublikada kompleks tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" bu kateqoriyadan olan uşaqların təhsil hüquqlarının müdafiəsində səmərəli mexanizmin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının ümumtəhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il iyunun 20-də imzaladığı Sərəncamın uğurlu icrası nəticəsində ötən il oktyabrın 1-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin istifadəyə verilməsi sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üçün əsaslı zəmin yaradıb. Distant Tədris Mərkəzi istifadəyə verildiyi gün məlum oldu ki, audiokitabxanada muxtar respublika üzrə 482 görmə qabiliyyəti məhdud şəxs qeydiyyatdan keçirilib. Müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərini artırmaq məqsədilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin məşğələlərinə sağlamlıq imkanları məhdud 80 uşaq cəlb edilib.

İsti yay günlərində sağlamlıq imkanları məhdud məktəbli uşaqların Ağbulaq İstirahət Mərkəzində istirahətləri də təmin edilir. Bu tədbirlərin davamı kimi sağlamlıq imkanları məhdud 50 məktəblinin valideynlərinin müşayiəti ilə Ağbulaq İstirahət Mərkəzində istirahətinin təşkili muxtar respublikada gələcəyimiz olan uşaqlara göstərilən dövlət qayğısının bariz təcəssümü, insan amilinə verilən əhəmiyyətin parlaq nümunəsidir.

Son illər muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı sosialyönümlü tədbirlərin uğurla davam etdirilməsi ilə yanaşı, ailələrin sosial rifahının yaxşılaşmasına xidmət edən çoxsaylı tədbirlərin həyata keçirilməsi ilə əlamətdardır. Bu, hər bir ailənin yaşayış səviyyəsinin yüksəldilməsinə, xüsusən aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

Aztəminatlı ailələrə xüsusi diqqət və qayğı göstərmək, onlara maddi və mənəvi dəstək olmaq dövlətin sosial siyasətinin mühüm tərkib hissəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən, aztəminatlı ailələrə baş çəkilməsi, onların zəruri ehtiyaclarının ödənilməsi muxtar respublika təcrübəsi kimi təqdirəlayiqdir. 2014-2015-ci illərdə bu qəbildən olan 200-dən artıq ailəyə dəstək göstərilib.

*Görülən işləri təhlil etdikcə, əldə edilmiş nəticələrə nəzər yetirdikcə bir daha əmin oluruq ki, ulu öndər Heydər Əliyevin sosial siyasət strategiyasının uğurla həyata keçirilməsi muxtar respublikamız gələcəkdə daha böyük uğurlar əldə edəcəkdir.*

**Rauf ƏLİYEV**

## Sərgi iştirakçıları Naxçıvandan xoş təəssüratlarla ayrılıblar

***Qərbi Azərbaycan Vilayəti İran İslam Respublikasının inkişaf etmiş böyük bölgələrindən biridir. Vilayətin mərkəzi qədim yaşayış məntəqələrindən biri olan Urmiya şəhəridir. Qərbi Azərbaycan Vilayəti yeraltı və yerüstü sərvətləri ilə zəngindir. Burada emal və istehsal sahələrinin sayı getdikcə artmaqdadır. Bölgədə illik istehsal gücü 4 milyon ton olan 3 sement zavodu, 6 qənd, 26 süd və süd məhsulları, 36 emal müəssisəsi və meyvə qablaşdırma, 1 polad istehsalı, 2 böyük petrokimya, qızıl və traktor istehsalı zavodları fəaliyyət göstərir. Vilayətdə sahibkarlıq fəaliyyətinin inkişafına çox böyük önəm verilir. İstehsal olunan məhsulların ixracı diqqət mərkəzində saxlanılır.***



Naxçıvan Muxtar Respublikası ilə Qərbi Azərbaycan Vilayəti arasında mövcud olan bir sıra sahələr üzrə əlaqələr sırasında ticarət əlaqələri xüsusi yer tutur. 2011-ci ilin payızında Urmiya şəhərində 5 gün müddətində Naxçıvan Muxtar Respublikasının ilk ticarət və sənaye sərgisi təşkil edilmişdir. Qərbi Azərbaycan Vilayətinin isə muxtar respublikada ilk ticarət və sənaye sərgisi 2015-ci ilin 14-17 avqust tarixlərində keçirildi. Vilayətin 20 şirkətinin iştirak etdiyi sərgidə sənaye və kənd təsərrüfatı, əl işləri, xalçalar və rəsm əsərləri olmaqla, 36 növdə məhsul nümayiş olunurdu.

Naxçıvan Muxtar Respublikası ilə Qərbi Azərbaycan Vilayəti arasında əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan birinci "İstehsal və ixracat imkanları" adlı sərgi naxçıvanlılar tərəfindən böyük maraqla qarşılandı.

Sərgidə öz məhsulları ilə iştirak edən Miyandab şəhərində fəaliyyət göstərən Xalça Fabrikinin satış müdiri Saman Muhəmməd Yari, Urmiya Toxuculuq Fabrikinin nümayəndəsi Məhəmmədrza Bazmi, "Yağış səsi" Uşaq Oyuncaqları Fabrikinin rəhbəri Əli Mehri və Təbii Dərman İstehsalı Fabrikinin nümayəndəsi Midiya Qureyşi ilə həmsöhbət olduq. Bildirdilər ki, birinci dəfədir, Naxçıvanda oluruq. Bu qədim diyar haqqında çox eşitmişdik. Bura gələndən sonra gördüklərimiz bizdə belə qənaət yaratdı ki, eşitdiklərimiz çox az imiş. Naxçıvanlılar istiqanlıdırlar, səmimidirlər, qonaqpərvərdirlər. Sərgimizlə tanış olarkən onların keyfiyyətli məhsula qiymət vermək bacarıqlarını gördük. Burada yüksək təşkilatçılıq da bizə xoş təsir bağışladı. Bir neçə naxçıvanlı sahibkarla işbirliyi qurmaq razılığına gəldik. Çox arzu edərdik ki, gələcəkdə belə sərgilərin təşkili davam etdirilsin. Naxçıvanlıların istehsal etdikləri məhsullar bizim vilayətdə, bizim məhsullarımız isə Naxçıvanda satılsın, ticarət əlaqələri genişləndirilsin.

Həmsöhbətlərim əlavə etdilər ki, Naxçıvan Muxtar Respublikasına gəlişimizdə iki məqsəd daşıyırıq. Birincisi, istehsal etdiyimiz məhsulları təbliğ etmək, ikincisi isə həmin məhsulların burada da satışına nail olmaq. Düşünürük ki, hər iki məqsədimizə nail olduq. Sərgi müddətində vaxt tapıb Naxçıvan şəhərində fəaliyyət göstərən ticarət obyektlərini gəzdik. Burada yüksək ticarət xidməti gördük. Yüksək ticarət xidməti isə keyfiyyətli məhsulla yanaşı, həm də alıcı probleminin həllində başlıca amildir. Mağazalar müasir standartlara tam cavab verir. Burada nağdsız ödənişlərin həyata keçirilməsi xüsusilə təqdir olunmalıdır. Muxtar respublikada olduğumuz müddətdə müşahidə etdiyimiz əsas məqamlardan biri də o oldu ki, Naxçıvanda insanların tələbatı düşünülür və yerli istehsala üstünlük verilir.

İranlı qonaqlar onu da bildirdilər ki, Naxçıvana gələn günü Naxçıvan Biznes Mərkəzində olublar, muxtar respublikanın istehsal müəssisələrinin məhsullarına baxıblar, "Ləzzət Biskvit və Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətində, "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətində və "Naxçıvan bağları" istixana kompleksində istehsalat prosesi ilə tanış olublar. Bu müəssisələrdə yaradılmış şərait onlara çox müsbət təsir bağışlayıb. Həmin müəssisələrin məhsulları rəqabətə davamlıdır.

Həmsöhbət olduğumuz qonaqlar dedilər ki, Naxçıvanda sahibkarlığın inkişafı dövlətin xüsusi nəzarətindədir. Naxçıvanlı sahibkarlar bununla qürur duya bilərlər. Əgər dövlət öz sahibkarına belə şərait yaradırsa, bu şəraitdə yüksəkkeyfiyyətli məhsul istehsal etmək heç də çətin deyil. Qaldı ki, Naxçıvan şəhərinə, çox gözəl təsir bağışladı. İlk olaraq şəhərin gözəlliyi qəlbimizi oxşadı. Naxçıvanlılar öz şəhərlərini ürəkdən sevirlər ki, onu belə səliqəli saxlayırlar. Həmişə belə olmağını arzulayırıq.

Sərgi zamanı onlara yüksək səviyyədə qayğı göstərildiyini dilə gətirən qonaqlar vurğuladılar ki, burada heç bir çətinliklə rastlaşmadıq. Naxçıvanda gördüklərimizdən ancaq razılıqla danışa bilərik. Bizə göstərilən səmimi münasibət üçün minnətdarlığımızı bildiririk.

✍ **Muxtar MƏMMƏDOV**

***Avqust ayının 18-də Babək rayonunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət qulluqçularının etik davranış qaydalarına riayət etməsinə nəzarətin artırılması, dövlət orqanlarında sənədlərlə işin təşkili vəziyyəti və dövlət qulluqçularının reyestrinin aparılması ilə bağlı maarifləndirici seminar keçirib.***

## Babək rayonunda dövlət qulluqçuları üçün seminar



Seminarda rayon İcra Hakimiyyəti aparatında, mərkəzi icra hakimiyyəti orqanlarının Babək rayonunda fəaliyyət göstərən qurumlarında və rayon məhkəməsində qulluq keçən dövlət qulluqçuları iştirak ediblər.

Seminarı giriş sözü ilə rayon İcra Hakimiyyəti başçısının birinci müavini Əbdülhüseyn Zamanov açaraq etik davranış qaydaları haqqında Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı son bir il ərzində həyata keçirilən tədbirlər haqqında məlumat verib.

Komissiyanın sədri Etibar Musayev çıxış edərək bildirib ki, 31 may 2007-ci il tarixdə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Qanun dövlət qulluqçuları üçün etik davranış qayda və prinsiplərini, həmçinin onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir. Qanunun birinci maddəsində qeyd olunur ki, etik davranış qaydaları dövlət qulluqçusu statusuna malik olan bütün şəxslərə şamil edilir. Hər bir dövlət qulluqçusu qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutaraq bu qanunun müddəalarına əməl etməyə borcludur.

Qeyd olunub ki, şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə dövlət qulluqçuları öz vəzifələrini səmərəli yerinə yetirməyə borcludurlar. Onlar bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdırlar. Dövlət qulluqçusu etik davranışı, peşəkar fəaliyyəti ilə dövlət orqanlarına inamı artırmalı və möhkəmləndirməli, dövlət qulluğu vəzifələrinin icrası ilə bir araya sığmayan, onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. O, Azərbaycan Respublikasının, dövlət orqanının və dövlət qulluğunun nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini uca tutmağa, etik davranış qaydalarının onun tərəfindən pozulması nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur.

Bildirilib ki, dövlət qulluqçusu bütün şəxslərə, o cümlədən birbaşa və yuxarı rəhbəri ilə və ya tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır. O, özünün və ya maraqlı şəxslərin mənafelərinin onun xidməti vəzifələrini yerinə yetirməsinə təsir etməsinə şərait yaratmamalı, qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməli və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir. Etik davranış qaydalarının pozulması dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır. Dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.

Komissiyanın sektor müdiri Arzuman İmanov çıxışında dövlət orqanlarında sənədlərlə işin təşkili, dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydaları barədə məlumat verib. Arzuman İmanov dövlət qulluqçuları reyestrinin aparılması ilə bağlı dövlət orqanları tərəfindən komissiyaya göndərilən sənədlərdə daha çox rast gəlinən nöqsanlar və onların aradan qaldırılması yolları haqqında danışıb.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Hafizə ƏLİYEVA**

## Sədərəkdə növbəti əmək yarmarkası keçirilib

***Sədərək rayonunda növbəti əmək yarmarkası keçirilib. Tədbiri giriş sözü ilə rayon Məşğulluq Mərkəzinin direktoru Həsən Nəsirov açıb.***

Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" muxtar respublikamızda yeni iş yerlərinin açılmasına, regiondakı əmək ehtiyatlarının iqtisadi fəallığının yüksəldilməsinə xidmət edir. Dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün mərkəzin əməkdaşları rayondakı idarə, müəssisə və təşkilatlarda, sahibkarlıq subyektlərində boş iş yerləri haqqında məlumatlar toplayaraq həmin yerləri əmək yarmarkalarına işaxtaran vətəndaşlara təqdim edirlər. Bugünkü əmək yarmarkası da işaxtaran vətəndaşların, xüsusilə gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların münasib işlə təmin olunmaları istiqamətində ardıcıl olaraq həyata keçirilən mühüm tədbirlərdən biridir. Yarmarkanın təşkilində əsas məqsəd işaxtaranların öz ixtisaslarına uyğun işlə təmin olunmasıdır.

Sədərək Rayon İcra Hakimiyyətinin əməkdaşı Bəxtiyar Mahmudov çıxışında rayonun sosial-iqtisadi inkişafından söz açıb. Qeyd edib ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilir. Muxtar respublikamızda da əmək bazarının təkmilləşdirilməsi, iqtisadi fəallığın yüksəldilməsi üçün müvafiq tədbirlər həyata keçirilir, insan amilinə qayğı prioritet vəzifəyə çevrilir. Bu, əhalinin bütün təbəqələrinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdə özünü bir daha göstərir.

İşaxtaran vətəndaş Oruc Abdullayev yarmarkanın təşkilində əməyi olanlara minnətdarlıq edərək bildirib ki, vətəndaşların müvafiq işlə təmin olunmasında əmək yarmarkalarının əhəmiyyəti böyükdür. Hər bir işaxtaran burada öz istedadına və bacarığına uyğun iş tapa bilər. Təqdirəlayiq haldır ki, iş yerləri haqqında müfəssəl məlumatları aidiyyəti qurumların burada təmsil olunan nümayəndələrindən almaq mümkündür.

Sonra tədbir iştirakçıları idarə, müəssisə və təşkilatlar tərəfindən əmək yarmarkasına çıxarılmış boş iş yerləri ilə tanış olublar. 6 təşkilatdan 69 boş iş yerinin çıxarıldığı tədbirdə 11 nəfərə göndəriş verilib.

## Sahibkarlar üçün təkmilləşdirmə kurslarına başlanılıb



*Avqustun 18-də Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi və Sahibkarlar Konfederasiyasının təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində muxtar respublikada fəaliyyət göstərən sahibkarlar üçün təkmilləşdirmə kurslarına başlanılıb.*

Bu münasibətlə keçirilən tədbiri Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin şöbə müdiri Mircavid Tağızadə açaraq bildirib ki, beş gün davam edəcək kurslarda "Əmək münasibətlərinin rəsmiləşdirilməsi və əməyin mühafizəsi, işçilərin pensiya hüquqlarının qorunması", "Vergi ödənişlərinin istifadə qaydaları və edilmiş dəyişikliklər haqqında", "Gömrük rəsmiləşdirilməsi və yeni gömrük qanunvericiliyinin tətbiqi haqqında", "Qida təhlükəsizliyi günün aktual məsələlərindəndir" və "İstehlakçıların hüquqlarının qorunması" mövzularında seminarlar keçiriləcək. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq təşkil olunan kurslarda müvafiq dövlət orqanlarının nümayəndələrinin iştirakı təmin olunacaqdır.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sektor müdiri Azər Cəfərov bu il fevralın 9-da Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilmiş müşavirədə Naxçıvan Biznes Mərkəzinin imkanlarından istifadə edilməsi yönündə verilmiş tapşırıqların icrası baxımından keçirilən kursların əhəmiyyətindən danışıb. Qeyd olunub ki, müxtəlif mövzularda təşkil olunan seminarlar sahibkarların maarifləndirilməsi, onlara beynəlxalq təcrübənin öyrədilməsi məqsədi daşıyır.

Sonra Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələri Ruslan Ələkbərov və Bəxtiyar Həsənovun təqdimatında "Əmək münasibətlərinin rəsmiləşdirilməsi və əməyin mühafizəsi, işçilərin pensiya hüquqlarının qorunması", Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin nümayəndəsi İsmayıl Bağırovun təqdimatında isə "Vergi ödənişlərinin istifadə qaydaları və edilmiş dəyişikliklər haqqında" mövzularında seminar keçirilib.

Sonda sahibkarları maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

# Şərur Olimpiya-İdman Kompleksindən səmərəli istifadə olunur



*İdman sağlamlıqdır, sağlam həyat tərzidir. İdman sağlamlığı və cəmiyyətin inkişafını təmin edən ən vacib sahələrdən biridir. Bu sahə ilə məşğul olan insanlar fiziki cəhətdən sağlam olduqları kimi, ruhən də sağlam, zərərli vərdişlərdən uzaq olurlar. Fiziki cəhətdən qüvvətli insan özünü daha da qətiyyətli, inamlı hiss edir. Hərtərəfli inkişaf etmiş insan həyatda tam iki cür sağlamlığa malik olmalıdır: mənəvi və fiziki sağlamlıq. Bu iki sağlamlığın vəhdətini insana ancaq idmanın verməyə qüdrəti var. Müstəqillik və dövlətçiliyin möhkəmləndirilməsi, etibarlı gələcəyin təminatı əhalinin aktivliyinin artırılmasından asılıdır ki, bunun da əsasını sağlam həyat tərzi təşkil edir.*

Ölkənin bütün regionlarında idmanın kütləviliyinin təmin edilməsi, yeniyetmə və gənclərin idmanın müxtəlif növləri ilə müntəzəm məşğul olması üçün idmanın maddi-texniki bazası gündən-günə gücləndirilir. Naxçıvan Muxtar Respublikasında gənc və yeniyetmələrin beynəlxalq arenalarda, yarışlarda, turnirlərdə iştirakı və uğur qazanmaları bu sahəyə olan xüsusi dövlət qayğısından və diqqətdən xəbər verir. Bu gün Naxçıvanda uşaq, yeniyetmə və gənclərin sağlam böyüməsi, onların fiziki və mənəvi inkişafı daim diqqət mərkəzindədir. Onların sağlam həyat tərzinin formalaşmasında və düzgün istiqamətə yönəlməsində idmanın böyük rolu var.

Muxtar respublikada fəaliyyət göstərən və qapıları gənclərin üzünə daim açıq olan idman obyektlərindən biri də Şərur Olimpiya-İdman Kompleksidir. Kompleksin ərazisi 9 hektardır. 2009-cu ildə ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilən kompleksə 2400 tamaşaçı yeri olan süni örtüklü stadion, tennis kortları, mini-futbol, basketbol və voleybol meydançaları, 142 tamaşaçı yeri olan üzgüçülük hovuzu daxildir.

İstənilən yarışı keçirməyə və təlim-məşq üçün əlverişli olan Olimpiya-İdman Kompleksində hazırda təmir işləri aparılır. Kompleksin direktoru Rza Camalov aparılan işlərlə bağlı bizimlə söhbətində bunları dedi: "Uzun müddətdir, idmançıların ixtiyarında olan Şərur Olimpiya-İdman Kompleksində təmir işləri davam etdirilir. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin balansında olan kompleksdə işıq və su sistemləri yenidən çəkilir, stadionun oturacaqları dəyişdirilir, üzgüçülük hovuzu təmir olunur. Kompleksin tərkibində olan mehmanxanada da cari təmir işləri aparılır, ərazidə yeni gül kolları əkilir. Mini-futbol meydançalarımızda da təmir işləri aparılır".

Geniş yaşıllıq sahəsi ilə əhatə olunmuş kompleksin ərazisində abadlıq işləri həyata keçirilir. Bütün bunlara baxmayaraq, bir çox idman növləri üzrə məşğələlər də davam etdirilir. Rza Camalovun dediklərindən: "Kompleks fəaliyyətə başladığı dövrdən burda basketbol, voleybol, əltopu, güləş, ağır atletika, trenajor və boksla məşğul olmaq imkanı yaradılıb. İdman meydançamızda isə futbol və futzal, basketbol, tennis oyunları üçün bütün şərait var. Həmçinin kompleksdə üzgüçülüklə də məşğul olmaq mümkündür. Sadaladığımız bu idman növlərində peşəkar mütəxəssislərin çalışdığını da vurğulamaq istərdim. Məşqçilərin nəzarəti altında müntəzəm olaraq məşqlər aparılır".

Həmsöhbətimiz dedi ki, yaradılan şəraitdən təkcə peşəkar idmançılar yox, həmçinin həvəskar idmançılar da istifadə edirlər: "Muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları, Şərur Rayon Gənclər və İdman İdarəsi ilə birgə işləyirik. Bunlarla yanaşı, bizə Şərur rayonunda fəaliyyət göstərən qurumlar, ictimai birliklər, dövlət orqanları, özəl sektoru təmsil edən müəssisələr məşq etmək, futbol oynamaq üçün müraciət edirlər. Təbii ki, onların bu təklifləri bizi sevindirir. Çünki kompleksin bu cür fəaliyyət göstərməsi, insanların idman sahəsinə hədsiz marağı diqqəti cəlb edir. Çalışırıq ki, dövlətimizin qurduğu bu idman obyektindən səmərəli istifadə olunsun".

## Velosiped yürüşü üzrə muxtar respublika birinciliyi



Naxçıvan Muxtar Respublikası ali, orta ixtisas təhsili müəssisələrinin tələbələri və ümumtəhsil müəssisələrinin şagirdlərinin iştirakı ilə "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında velosiped yürüşü üzrə muxtar respublika birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkil etdiyi birinciliyin açılış mərasimində çıxış edən federasiyanın sədr müavini Azər Məmmədov keçirilən yarışın mahiyyəti haqda məlumat verib. Sonra nazirliyin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov çıxış edərək son illər muxtar respublikada idmanın yüksəlişindən və göstərilən qayğıdan danışıb. Nazirlik nümayəndəsi həmçinin yarışın qaydaları haqda iştirakçıları məlumatlandırıb.

Naxçıvan Muxtar Respublikasında hava və ekstremal idman növlərini tanıtmaq, inkişaf etdirmək və kütləviliyinə nail olmaq məqsədilə keçirilən yarışda 40-dan çox velosipedçi iştirak edib. Yarışın reqlamentinə əsasən, iştirakçılar fərdi və komanda hesabında mübarizə aparıblar.

Fərdi hesabda Naxçıvan Dövlət Universitetinin tələbəsi Rəşad Əhmədov bütün rəqiblərini qabaqlayaraq birinci yerə layiq görülüb. Universitetin digər tələbəsi Xalid Novruzov ikinci, Şahbuz rayon komandasının üzvü Əsəd Fərzəlizadə isə üçüncü olublar.

Komanda hesabına gəlincə, Naxçıvan Dövlət Universitetinin komandası muxtar respublika birinciliyini ilk pillədə başa vurub. Digər iki pillədə isə Şahbuz rayonunun və Naxçıvan Dövlət Texniki Kollecinin komandaları qərarlaşıblar.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

**Naxçıvan Tibb Kollecində ixtisaslı tibb işçilərinin hazırlanması muxtar respublikanın səhiyyə ocaqlarının kadr təminatının ödənilməsinə imkan verir. Naxçıvan Tibb Kollecində Mamalıq işi, Müalicə işi, Tibb bacısının işi, Əczaçılıq işi, Ortopedik stomatologiya olmaqla, 5 ixtisas üzrə orta ixtisaslı kadrlar hazırlanır.**

## Tibb Kollecinin tələbələri Türkiyədə təcrübə kursu keçmişlər

Kollecdə mikrobiologiya və tibbi genetika, anatomiya, fiziologiya, patologiyanın əsasları, tibb bacısının işi və daxili xəstəliklər, uşaq xəstəlikləri, cərrahiyyə, informatika, humanitar və sosial-iqtisadi, hərbi tibbi hazırlıq və fəlakətlər təbabəti fənləri üzrə 8 kabinə, 6 elektron lövhəli otaq, kitabxana, akt zalı, idman zalı, 3 laboratoriya, 2 kompüter otağı fəaliyyət göstərir.

Yaradılmış şəraitdən səmərəli istifadə etməklə ixtisaslı kadr təminatına nail olmaq üçün hazırda ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə Türkiyə Respublikasının tanınmış klinika və ali məktəbləri arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinə uyğun olaraq, Naxçıvan Tibb Kollecinin müxtəlif ixtisaslar üzrə tələbə və müəllim heyəti bu il avqustun 1-dən 16-dək Türkiyə Respublikası Ərzurum Atatürk Universitetində on beş gün müddətinə təcrübə kursu keçmişdir.

4 müəllim və 16 tələbədən ibarət heyət Atatürk Universitetinin araşdırma xəstəxanasının endokrinoloji, ginekoloji, dəri-zöhrəvi, genetika, cərrahi, pediatriya, təcili tibbi yardım üzrə bölmələrində olmuşdur. Tələbələr xəstəxananın tibb bacıları ilə birlikdə müxtəlif manipulyasiyaların aparılmasında, sarğıların qoyulmasında, digər tibbi proseslərdə iştirak etmiş, qarşılıqlı təcrübə mübadiləsi aparmışlar. Onlar plastik və keysəriyyə əməliyyatlarını izləmiş, doğuş zallarında, genetik laboratoriyada iş prosesi ilə tanış olmuş, müasir tibbi avadanlıq və cihazların istifadə qaydalarını, yeni müayinə-müalicə üsullarını mənimsəmişlər. İkihəftəlik təcrübə müddətində müəllim-tələbə heyəti təcrübi vərdişləri möhkəmlətmiş, xarici tibbi ədəbiyyatla tanış olaraq nəzəri biliklərini artırmışdır.

Ümumiyyətlə, Naxçıvan Tibb Kollecinin tarixində ilk dəfə olaraq xarici əlaqələrin yaradılması, qarşılıqlı əməkdaşlıq səhiyyə müəssisələrinin bacarıqlı tibb işçiləri ilə təminatında mühüm rol oynayacaqdır.

Heyət kursu başa vuraraq Naxçıvana qayıtmışdır.

## Həkim briqadası Xanağa kəndində uşaqlara profilaktik tibbi xidmət göstərib

Muxtar respublika əhalisinin sağlamlığının mühafizəsi, dispanserizasiya işinin yaxşılaşdırılması məqsədilə həkim briqadaları şəhər, qəsəbə və kəndlərdə kütləvi profilaktik müayinələri davam etdirirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının pediatr, endokrinoloq, oftalmoloq, stomatoloq, nevropatoloq, cərrah və laborantlardan ibarət həkim briqadası Ordubad rayonunun Xanağa kəndində uşaqlara profilaktik tibbi xidmət göstərib. Briqadanın fəaliyyəti zamanı 18 yaşadək olan əhalinin 30 nəfəri profilaktik müayinədən keçirilib. 40 nəfər valideynlə səhiyyə maarifi işi aparılıb. Dispanserizasiya işinin düzgün təşkili, peyvəndlərin təqvim üzrə aparılması, tibbi sənədləşmənin həyata keçirilməsi üçün həkim ambulatoriyasının tibb bacılarına metodik məsləhətlər verilib. Aşkar edilmiş bəzi xəstələrin əlavə müayinə və müalicəsi üçün müvafiq səhiyyə müəssisələrinə getmələri tövsiyə edilib. Xəstələr pulsuz dərman və sarğı materialları ilə təmin olunublar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Sənədləşmə işlərinin təşkili üzrə seminar

***Dünən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində sənədləşmə işinin təşkili üzrə seminar keçirilib. Seminarı nazirliyin şöbə müdiri Həsən Kərimov açıb.***

Nazirliyin sektor müdiri İman Alırzayev "Kargüzarlıq işinin ümumi qaydaları" mövzusunda çıxışında sənədləşmə işinin icrasına nəzarət, sənədlərin hazırlanması, kargüzarlıq işinin ümumi qaydaları və onlara riayət edilməsi ilə bağlı seminar iştirakçılarına məlumat verib.

Nazirliyin əməkdaşı Cəfər Əsədov "Kadr sənədlərinin işlənməsi" mövzusunda çıxışında kadr sənədlərinin hazırlanması, şəxsi işlərin işlənməsi, əmək müqaviləsinin bağlanması və ona xitam verilməsi haqqında danışıb.

Sonra nazirliyin əməkdaşı Pərvin Həsənov "Uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində sənədləşmə işlərinin aparılması" mövzusunda çıxış edərək jurnalların işlənmə qaydaları, doldurulması, illik və yekun qiymətlərin tərtib edilməsi, anketlərin işlənməsi, dərs cədvəllərinin, pedaqoji şuraların iş planlarının tərtibi və keçirilməsi, sənədləşdirilməsi haqqında məlumat verib.

Vurğulanıb ki, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində sənədləşmə və kargüzarlıq işləri qəbul edilmiş əsasnamələrdə nəzərdə tutulduğu kimi yerinə yetirilməlidir.

Seminarda sənədlərin işlənməsi qaydaları müvafiq slaydlar vasitəsilə əyani nümayiş etdirilib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Nazirlik növbəti analoji seminarı mədəniyyət evləri, klublar və mədəni-maarif müəssisələri üçün avqustun 20-də keçirəcəkdir.

**Əli RZAYEV**

*İtmişdir*

Abdinov Elməddin Elman oğlunun adına 20 iyul 2007-ci il tarixdə verilmiş AO-0903495 seriya nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 631